Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri
Üzrə Dövlət Komitəsi

UNHCR
The UN Refugee Agency



# MƏİŞƏT ZORAKILIĞININ QARŞISINI ALAQ!




HEÇ VAXT UNUTMAYIN!
HƏR BİR ZORAKILIQ
HÜQUQA ZİDD HƏRƏKƏTDİR VƏ
AZƏRBAYCAN RESPUBLİKASININ
QANUNVERİCİLİYİNƏ MÜVAFİQ OLARAQ
CƏZALANDIRILIR.


MƏİŞƏT ZORAKILIĞINA
HAQQ QAZANDIRMAQ VƏ
BƏRAƏT VERMƏK OLMAZ!




# MƏİŞƏT ZORAKILIĞINA SON QOYAQ!

İnsanın mənəviyyatına, şərəf və ləyaqətinə ziyan vurulmadan öz fərdi intellektual potensialının gerçəkləşdirilməsi, azad, sərbəst, dolğun həyat sürmək, onun hər bir sahədə insan hüquqlarının həyata keçirilməsi ilə sıx bağlıdır.

Zorakılığın hər bir növü fərdin azadlığının məhdudlaşdırılması və fundamental hüquq və azadlıqlarının pozulması ilə müşayiət olunan hərəkətlərdə özünü büruzə verir.

Zorakılıq – özünə, digər şəxsə və ya qrup insanlara, icmaya cismani zədələr, ölüm, psixoloji travma, inkişafın pozulması və ya müxtəlif formada zərər vuran həqiqi, ya da hədə şəklində fiziki qüvvə və ya tətbiq edilməsi deməkdir.
(Ümumdünya Səhiyyə Təşkilatının tərifi)


BÜTÜN
İNSAN HÜQUQLARI
HƏR KƏS ÜÇÜNDÜR!

Ailənin hər bir üzvünün zorakılığa məruz qalması ehtimalı ola bilər. Amma əksər hallarda ailənin ən zəif müdafiə olunan üzvləri – qadınlar, uşaqlar, ahıllar və əlilliyi olan insanlar zorakılıq hədəfinə çevrilirlər. Lakin onun ən geniş yayılmış forması – kişinin öz gücünün ailənin qadın üzvlərinə, o cümlədən cinsi partnyoruna qarşı istifadə etməsidir. Şəxsi razılığı olmadan insana qarşı edilən hər bir zorakı hərəkət insan hüquqlarını pozmaq, onu istismar etmək deməkdir. Buraya ona qarşı edilən hər bir zorakı hərəkət, yəni fiziki, seksual və psixoloji zədə verə bilən, o cümlədən onu cismi yaxud mənəvi əzab, iztirab çəkməyə, ağlamağa vadar edən vəziyyətin yaradılması və s. daxildir.

## MƏİŞƏT ZORAKILIĞINA AİLƏ ÜZVLƏRİ TƏRƏFİNDƏN UŞAQLARA QARŞI KOBUD RƏFTAR VƏ LAQEYİD MÜNASİBƏT DƏ AİDDİR

"Məişət zorakılığı" anlayışı belə halın qurbanı və təcavüzkarın cinsinə, yaşına və yaxud digər əlamətlərinə görə müəyyən olunmur. Bu əməli kişi, qadın, böyüklər və hətta uşaqlar da törədə bilər.

## ZORAKILIĞIN MÜXTƏLİF FORMALARI MÖVCUDDUR

Bura fiziki, emosional, mənəvi-psixoloji təzyiq, iqtisadi nəzarət, hədələmə, şantaj, cinsi məcburiyyət və təcridetməni də daxil etmək olar.

## 22 İYUN 2010-CU İL TARİXİNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA "MƏİŞƏT ZORAKILIĞININ QARŞISININ ALINMASI HAQQINDA" QANUN QƏBUL OLUNMUŞDUR. BU QANUNA ƏSASƏN:

- məişət zorakılığı – yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamalarından sui-istifadə etməklə, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasıdır. Həmin Qanun aşağıdakı şəxslərə şamil edilir:
- yaxın qohum olan ailə üzvlərinə (ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər), habelə birgə yaşadığı hallarda digər qohumlara;
- nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan keçmiş ər-arvada;
- qəyyum və ya himayəçi təyin olunmuş fiziki şəxslərə, habelə üzərində qəyyumluq və ya himayəçilik təyin edilmiş şəxslərə;
- qanuni nikahda olmadan birgə yaşayan kişi və qadına, habelə onlarla birgə yaşayan yaxın qohumlarına.

# MƏİŞƏT ZORAKILIĞI – İNSAN HÜQUQLARININ KOBUD POZUNTUSUDUR!

### BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI (BMT) TƏRƏFİNDƏN 1948-Cİ İLDƏ QƏBUL EDİLMİŞ ÜMUMDÜNYA İNSAN HÜQUQLARI BƏYANNAMƏSİNƏ ƏSASƏN HƏR BİR İNSAN YAŞAMAQ, AZADLIQ VƏ ŞƏXSİ TOXUNULMAZLIQ HÜQUQUNA MALİKDİR

**Bəyannamədə aşağıdakılar mövcuddur:**

**Maddə 1.** Bütün insanlar ləyaqət və hüquqları cəhətdən azad və bərabər doğulurlar.

**Maddə 5.** Heç kəs işgəncə və digər qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və cəzaya məruz qalmamalıdır.

### BMT-NİN BAŞ MƏCLİSİ TƏRƏFİNDƏN 1966-CI İLDƏ QƏBUL OLUNMUŞ

**– İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktda aşağıdakı bənd mövcuddur:**

**Maddə 10.** Bütün uşaqlara və yeniyetmələrə münasibətdə, ailə mənşəyinə və digər əlamətlərə görə heç bir ayrı-seçkilik salmadan xüsusi himayə və kömək tədbirləri görülməlidir. Uşaqlar və yeniyetmələr iqtisadi və sosial istismardan müdafiə olunmalıdırlar. Onların əməyinin onların mənəviyyatları və səhhətləri üçün zərərli, həyatları üçün təhlükəli olan və ya normal inkişaflarına ziyan vura biləcək sahələrdə istifadəsi qanunla cəzalandırılmalıdır. Bundan başqa, dövlətlər muzdlu uşaq əməyindən istifadə üçün yaş hədlərini müəyyənləşdirməlidirlər, həmin hədlərdən aşağı yaşlarda bu cür əməkdən istifadə qadağan edilməli və cəzalandırılmalıdır.

**– Mülki və siyası hüquqlar haqqında beynəlxalq paktda aşağıdakı bənd mövcuddur:**

**Maddə 8.** Heç kim kölə halında saxlanılmamalıdır; köləlik və kölə ticarətinin bütün növləri qadağan edilir. Heç kim asılı vəziyyətdə saxlanılmamalıdır.

**BMT tərəfindən 1989-cu ildə qəbul edilmiş Uşaq Hüquqları haqqında Konvensiyada aşağıdakı bənd mövcuddur:**

**Maddə 37.** Heç bir uşaq işgəncələrə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan digər rəftar və ya cəza növlərinə məruz qala bilməz.

### AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA AŞAĞIDAKILAR MÖVCUDDUR:

**Maddə 25.** Bərabərlik hüququ. Hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.

**Maddə 34.** Nikah hüququ. Nikah könüllü razılıq əsasında bağlanılır.

Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz. Ər ilə arvadın hüquqları bərabərdir.
**Maddə 46.** Şərəf və ləyaqətin müdafiəsi hüququ. Hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır. Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz. Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz.

## MƏİŞƏT ZORAKILIĞININ SƏBƏBLƏRİ

Fikir ayrılığı sağlam və normal ailə münasibətlərinin ayrılmaz hissəsidir. Əgər ailə üzvləri bir-birinə qarşılıqlı hörmət nümayiş etdirsələr və bərabər şəkildə davransalar, üzləşdikləri problemlərin həlli yolunu da birlikdə axtarıb tapa bilərlər. Zorakılıq iqtisadi, sosial, mənəvi və digər problemlərlə daha da ağırlaşa bilər. Əgər ailədə qeyri-sağlam mühit mövcuddursa, bu zaman ailə üzvlərindən biri ailənin zəif, özünü qorumaq iqtidarında olmayan və asılı vəziyyətdə olan digər üzvləri – qadın və uşaqlar üzərində üstünlük əldə etməyə çalışır.

## MƏİŞƏT ZORAKILIĞINA HAQQ QAZANDIRMAQ VƏ BƏRAƏT VERMƏK OLMAZ!

Məişət zorakılığı probleminin cəmiyyət və dövlət tərəfindən etiraf edilməsi onun həlli yolunda atılan ilk addım sayıla bilər. Bəzi hallarda məişət zorakılığı halını aşkar edərək açıq müzakirəyə çıxarmaq çətin olur. Bəziləri düşünürlər ki, zorakılıq ər-arvad münasibətlərinin ayrılmaz hissəsini təşkil edir və onu müzakirə etməyə dəyməz. Lakin daim qorxu içində yaşamaq və ya zorakılığa məruz qalmaq həssas ailə üzvlərinin  fiziki və psixoloji vəziyyətinin sarsılmasına gətirib çıxara bilər və bu vəziyyəti sonralar düzəltmək mümkün olmaya bilər.

### Aşağıdakılar haqqında düşünün və ətrafınızdakı insanların zorakılıq qurbanı olmadan yaşamasına kömək edin:

- Hər hansı bir şəxs döyülə, qəddar rəftara və zorakılığa məruz qala bilməz;
  Ailədə baş verən zorakılığa bəraət qazandırmaq olmaz:
- partnyorunuzun alkoqol və ya narkotik aludəçisi, işsiz, yorğun və ya qəzəbli olması onun Sizə qarşı zorakılıq tətbiq etməsinə haqq qazandıra bilməz;
- Zorakı münasibətlər öz-özünə bitmirlər, qarşısı alınmasa zorakılıq artar və daha tez-tez təkrarlana bilər;
- Uşaqlarınız, onların gözləri önündə baş verən zorakılıq səhnələrindən qorunmalıdırlar.

### Və nəhayət:

- Hər bir insan təhlükəsiz və sağlam ailə münasibətlərinə layiqdir və daimi qorxu və nəzarət şəraitində yaşamamalıdır.

# MƏİŞƏT ZORAKILIĞININ NÖVLƏRİ



ZORAKILIĞIN BİR ÇOX NÖVLƏRİ MÖVCUDDUR. ELƏ HALLAR OLUR Kİ, ŞƏXSƏ QARŞI FİZİKİ QÜVVƏ TƏTBİQ EDİLMƏDƏN, ZORAKILIQ TÖRƏDİLİR VƏ BU FAKTI ASANLIQLA AŞKAR ETMƏK MÜMKÜN OLMUR. BELƏ DURUMUN SONRAKI İNKİŞAFI İSƏ DAHA CİDDİ TƏHLÜKƏLƏR DOĞURUR.



## AŞAĞIDA ZORAKILIĞIN ƏN ÇOX YAYILMIŞ NÖVLƏRİ GÖSTƏRİLMİŞDİR:

### FİZİKİ ZORAKILIQ:

- Döymək
- Sağlamlığa zərər yetirmək
- Bədənə xəsarət yetirmək
- Boğmaq
- Yandırmaq (isti alətlə və s.)
- Silah tətbiq etmək
- Fiziki güc tətbiq etməklə azadlığı məhdudlaşdırmaq

### PSİXOLOJİ (EMOSİONAL) ZORAKILIQ:

- Söymək,təhqir etmək, şərəf və ləyaqəti alçaldmaq, zorakılıqla hədələmək
- Təhsil almağa maneçilik törədilmək
- Nikaha daxil olmağa məcbur etmək
- Nikaha daxil olmağa maneçilik törətmək
- Dözülməz psixoloji şəraitin yaradılmasına səbəb olan qısqanclıq və ya digər alçaldan davranış nümayiş etmək

### CİNSİ ZORAKILIQ:

- Cinsi əlaqəyə girməyə məcbur etmək
- Zorlamaq (o cümlədən nikah münasibətlərində olarkən)
- Seksual xarakterli hərəkətlər və ya onlara məcbur etmək

### İQTİSADİ ZORAKILIQ:

- Ailənin maliyyə resurslarını özündə saxlamaq
- Evdən kənarda işləməyə və ya işini davam etdirməyə qadağa qoymaq
- Zəruri maddi vəsaiti əldə etmək üçün daim yalvarmağın azım gəldiyi bir şərait yaratmaq
- Pul vəsaiti və yardım xahiş etmək məcburiyyətində saxlamaq
- Qazancı əlindən almaq
- Ailənin maliyyə vəsaitinin, ailənin digər üzvlərinin razılığı olmadan özbaşına xərcləmək
- Əmlak sahibi olmağa maneə törətmək, mülkiyyət hüququndan imtina etməyə vadar etmək və maliyyə asılılığı yaradan digər hərəkətlər törətmək

# MƏİŞƏT ZORAKILIĞI TÖRƏTMİŞ ŞƏXS İNZİBATİ VƏ CİNAYƏT MƏSULİYYƏTİNƏ CƏLB EDİLİR!



NÖVBƏTİ BÖLMƏDƏ FİZİKİ VƏ PSİXOLOJİ-EMOSİONAL ZORAKILIĞIN TÖRƏDİLMƏSİNƏ GÖRƏ ŞƏXSİN AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNƏ ƏSASƏN İNZİBATİ VƏ CİNAYƏT MƏSULİYYƏTİNƏ CƏLB OLUNMASINA, ONUN HÜQUQAZİDD HƏRƏKƏTLƏRİ NƏTİCƏSİNDƏ VURULMUŞ ZİYANIN ÖDƏNİLMƏSİNƏ DAİR BƏZİ MADDƏLƏR QEYD OLUNMUŞDUR.



## AZƏRBAYCAN RESPUBLİKASININ İNZİBATİ XƏTALAR MƏCƏLLƏSİNƏ ƏSASƏN MƏİŞƏT ZORAKILIĞINA GÖRƏ İNZİBATİ MƏSULİYYƏT

**Maddə 157. Döymə**

Döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə

- üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

QEYD: BU MADDƏDƏ NƏZƏRDƏ TUTULMUŞ ƏMƏL SAĞLAMLIĞA AĞIR, AZ AĞIR VƏ YA YÜNGÜL ZƏRƏR VURMAQLA TÖRƏDİLDİKDƏ, AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİNİN MÜVAFİQ MADDƏLƏRİNƏ ƏSASƏN CİNAYƏT MƏSULİYYƏTİNƏ SƏBƏB OLUR.

**Maddə 158. Məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulması**

**158.1.** Məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərə görə

- yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

**158.2.** Məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə

- üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

**158.3.** Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyadan keçmədən fəaliyyət göstərməsinə görə

- otuz beş manatdan əlli manatadək məbləğdə cərimə edilir.

QEYD: 1. BU MƏCƏLLƏNİN 158.1 VƏ 158.2-Cİ MADDƏLƏRİNDƏ "ŞƏXS" DEDİKDƏ, "MƏİŞƏT ZORAKILIĞININ QARŞISININ ALINMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN 4-CÜ MADDƏSİNDƏ NƏZƏRDƏ TUTULMUŞ ŞƏXSLƏR BAŞA DÜŞÜLÜR.
2. BU MƏCƏLLƏNİN 158.1 VƏ 158.2-Cİ MADDƏLƏRİ HƏMİN MADDƏLƏRDƏ GÖSTƏRİLƏN ƏMƏLLƏR AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİNİN MÜVAFİQ MADDƏLƏRİNƏ ƏSASƏN CİNAYƏT MƏSULİYYƏTİNƏ SƏBƏB OLMADIQDA TƏTBİQ EDİLİR.

## AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİNƏ ƏSASƏN MƏİŞƏT ZORAKILIĞINA GÖRƏ CİNAYƏT MƏSULİYYƏTİ

## FİZİKİ ZORAKILIĞA GÖRƏ MƏSULİYYƏT

### Maddə 106. Köləlik

**106.1.** Köləlik, yəni şəxs üzərində mülkiyyət hüququna xas olan səlahiyyətləri tam və ya qismən həyata keçirmə
- beş ildən on illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**106.2.** Eyni əməllər yetkinlik yaşına çatmayana qarşı və ya şəxsi xarici ölkəyə daşımaq məqsədi ilə törədildikdə
- yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**106.3.** Kölə ticarəti, yəni şəxsi köləliyə yönəltmək və ya kölə kimi istifadə etmək, satmaq və ya dəyişdirmək məqsədi ilə saxlama, onun barəsində sərəncam vermə, habelə kölə ticarəti və kölələrin daşınması ilə bağlı hər hansı bir əməl, eləcə də cinsi köləlik və ya köləlik əsasında cinsi azadlığa qəsd edən əməl
- beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

### Maddə 108. Cinsi zorakılıq

Şəxslərə qarşı zorlama, fahişəliyə məcbur etmə, məcburi sterilizasiya və ya cinsi zorakılıqla əlaqədar digər hərəkətləri etmə
- on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

### Maddə 126. Qəsdən sağlamlığa ağır zərər vurma

**126.1.** Qəsdən sağlamlığa ağır zərər vurma, yəni insan həyatı üçün təhlükəli olan və ya görmə, eşitmə, nitq qabiliyyətinin və ya hər hansı bir orqanın, yaxud bu orqanın funksiyasının itirilməsinə, psixi pozuntuya və ya sağlamlığın başqa cür pozulmasına, əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmamaqla uzun müddətə itirilməsi ilə və ya təqsirkar üçün aşkar surətdə zərərçəkmiş şəxsin peşəkar əmək qabiliyyətinin tam itirilməsi ilə əlaqədar olan və ya hamiləliyin pozulmasına,

şəxsin narkomanlıqla və ya toksikomanlıqla xəstələnməsinə səbəb olan, yaxud sifətin silinməz dərəcədə eybəcərləşdirilməsində ifadə olunan zərər vurma
● üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

### Maddə 127. Qəsdən sağlamlığa az ağır zərər vurma

**127.1.** Zərərçəkmiş şəxsin həyatı üçün təhlükəli olmayan və bu Məcəllənin 126-cı maddəsində nəzərdə tutulan nəticələrə səbəb olmayan, lakin sağlamlığın uzun müddət pozulmasına səbəb olmuş və ya ümumi əmək qabiliyyətinin üçdə bir hissəsindən az olmaqla əhəmiyyətli dərəcədə itirilməsi ilə nəticələnən qəsdən sağlamlığa az ağır zərər vurma
● iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

### Maddə 128. Qəsdən sağlamlığa yüngül zərər vurma

Sağlamlığın qısa müddətə pozulmasına və ya ümumi əmək qabiliyyətinin cüzi itirilməsinə səbəb olmuş qəsdən sağlamlığa yüngül zərər vurma
● beş yüz manatdan min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

QEYD: BU MADDƏDƏ NƏZƏRDƏ TUTULMUŞ ƏMƏLİ İLK DƏFƏ TÖRƏTMİŞ ŞƏXS ZƏRƏRÇƏKMİŞ ŞƏXSLƏ BARIŞDIQDA VƏ ONA DƏYMİŞ ZİYANI TAMAMİLƏ ÖDƏDİKDƏ CİNAYƏT MƏSULİYYƏTİNDƏN AZAD OLUNUR.

### Maddə 129.1 Qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma

**129.1.** Zərərçəkmiş şəxs tərəfindən edilən zorakılıq, ağır təhqir və ya sair qanunsuz və ya əxlaqsız hərəkətlər (hərəkətsizlik) nəticəsində, habelə zərərçəkmiş şəxsin mütəmadi qanunsuz və ya əxlaqsız davranışı ilə əlaqədar yaranmış uzunsürən dözülməz psixi şərait nəticəsində qəflətən baş vermiş güclü ruhi həyəcan (affekt) vəziyyətində qəsdən sağlamlığa ağır zərər vurma
● iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

### Maddə 144. Adam oğurluğu

**144.1.** Adam oğurluğu
● beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

## PSİXOLOJİ ZORAKILIĞA GÖRƏ MƏSULİYYƏT

### Maddə 125. Özünü öldürmə həddinə çatdırma

Təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun

ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma
- üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 133. Əzab vermə**

**133.1.** Bu Məcəllənin 126 və 127-ci maddələrində göstərilən nəticələrə səbəb olmayan mütəmadi olaraq döyməklə və ya sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermə
- iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 134. Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə**

Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə, hədənin icra ediləcəyi üçün real əsaslar olduqda
- iki yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 176-1. Qadını nikaha daxil olmağa məcbur etmə**

**176-1.1.** Qadını nikaha daxil olmağa məcbur etmə
- iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**176-1.2.** Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə
- üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

## CİNSİ ZORAKILIĞA GÖRƏ MƏSULİYYƏT

**Maddə 149. Zorlama**

**149.1.** Zorlama, yəni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olma
- dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**149.2.3.** təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxsə qarşı törədildikdə
- beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 151. Seksual xarakterli hərəkətlərə məcbur etmə**

Əmlakının məhv edilməsi, zədələnməsi və ya götürülməsi hədəsi ilə və yaxud zərərçəkmiş şəxsin maddi və ya sair asılılığından istifadə etməklə onu cinsi əlaqəyə girməyə, uşaqbazlığa və ya seksual xarakterli digər hərəkətlərə məcbur etmə
- bir ildən iki ilədək müddətə islah işləri və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 152. On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə**

**152.1.** On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə

- üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**152.2.** Eyni əməllər on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə

- üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**152.3.** Bu Məcəllənin 152.1 və ya 152.2-ci maddələrində göstərilən əməllər yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya yetkinlik yaşına çatmayana nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədildikdə

- üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə dörd ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

QEYD: BU MƏCƏLLƏNİN 152 VƏ YA 153-CÜ MADDƏLƏRİNDƏ NƏZƏRDƏ TUTULMUŞ CİNAYƏTLƏRƏ GÖRƏ MƏSULİYYƏT HƏMİN MADDƏLƏRDƏ GÖSTƏRİLƏN ƏMƏLLƏRİ TÖRƏTMİŞ ŞƏXSLƏ ZƏRƏRÇƏKMİŞ ŞƏXSİN YAŞ FƏRQİ İKİ İLDƏN ÇOX OLDUQDA YARANIR.

# MƏİŞƏT ZORAKILIĞI QURBANLARINA YARDIM MEXANİZMLƏRİ

### Məişət zorakılığı ilə üzləşdiyiniz halda ilk növbədə hara müraciət etməlisiniz?

Məişət zorakılığı ilə qarşılaşdıqda və ya şahidi olduqda siz ilkin yardım almaq üçün

- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən **“102”**
- Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Təcili Tibbi Yardımın **“103”**
- Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı mübarizə idarəsinin **“152”** xidməti zəng mərkəzlərinə müraciət etməlisiniz.

### Məişət zorakılığı ilə üzləşdiyiniz halda uzun müddətli yardım almaq üçün hara müraciət etməlisiniz?

#### DÖVLƏT ORQANLARI

Daha uzun müddətli və davamlı yardım almaq üçün məişət zorakılığı üzrə səlahiyyətli dövlət orqanlarına müraciət edə bilərsiz. Bunlara Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (OMBUDSMAN) və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi aiddir. Bu orqanlar məişət zorakılığı qurbanlarına psixoloji və hüquqi yardımlar göstərir və reabilitasiya tədbirləri görürlər.

## AZƏRBAYCAN RESPUBLİKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİNİN (OMBUDSMAN) KONTAKTLARI

### Bakı ofisi:

AZ 1000, Bakı şəhəri
Ü. Hacıbəyli küç., 80, Hükumət Evi, II qapı
Tel.: (+994 12) 498 23 65
(+994 12) 493 74 22
Fax: (+994 12) 498 23 65
Veb- səhifə: www.ombudsman.gov.az
E-mail: ombudsman@ombudsman.gov.az

### Qəbul vaxtları:

| | |
|---|---|
| Bazar ertəsi: | 10.00-13.00 |
| Çərşənbə axşamı: | 14.00-17.00 |
| Cümə axşamı: | 10.00-13.00 |
| Cümə: | 14.00-17.00 |

### Regional Mərkəzləri:

#### Gəncə
H.Aliyev meydanı, inzibati bina,
1-ci mərtəbə, Gəncə, AZ2000
tel./faks: (+994 22) 256 05 65

#### Şəki
AZ5500, Şəki şəhəri,
M.Rəsulzadə Prospekti, 139 A
tel./faks: (+994 24) 244 01 33

#### Cəlilabad
AZ1500, Cəlilabad şəhəri,
H. Əliyev Prospekti, 153
tel./fax: (+994 25) 245 25 99

#### Quba
AZ4000, Quba şəhəri,
Y. Qasımov küç., 68
tel./faks: (+994 23) 335 15 99

## AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN KONTAKTLARI

### Bakı ofisi:

Ü.Hacıbəyli küç 80, Hökumət Evi,
Qapı 4, Bakı, AZ1000
tel: (+994 12) 498 00 92
faks: (+994 12) 498 58 72
vebsayt: www.scfwca.gov.az
e-mail: office@scfwca.gov.az

### Qəbul vaxtları:

| | |
|---|---|
| Çərşənbə axşamı: | 10.00-17.00 |

### Regionl Uşaq və Ailələrə Dəstək Mərkəzləri:

#### Şüvəlan
Bakı şəhəri, Şüvəlan qəsəbəsi,
A. İldırım küç., dalan I, döngə I
Əlaqə nömrəsi: (+994 12) 454 89 60
(+994 12) 454 95 52

#### Goranboy
Goranboy rayonu,
G.Civəzadə küç., 9
Əlaqə nömrəsi: (+994 22) 245 30 13

#### Sabirabad
Sabirabad rayonu,
İ. İsgəndərov küç., 9
Əlaqə nömrəsi: (+994 21) 235 84 13

#### Zaqatala
Zaqatala rayonu, Nizami küç., 9
Əlaqə nömrəsi: (+994 24) 225 51 88

#### Ağdam
Ağdam rayonu, Dörd yol qəsəbə 1
Əlaqə nömrəsi: (+994 26) 324 20 13

### İsmayıllı
İsmayıllı rayonu, Nərimanov küç., 36
Əlaqə nömrəsi: (+994 20) 285 10 46

### Qəbələ
Qəbələ rayonu, Hərbi şəhərcik 2
Əlaqə nömrəsi: (+994 24) 203 52 70

### Göygöl
Göygöl rayonu, Hummel küç., 33
Əlaqə nömrəsi: (+994 22) 205 34 03

### Zərdab
Zərdab rayonu, R. Kərimov küç., 14
Əlaqə nömrəsi: (+994 20) 296 63 61

### Saatlı
Saatlı rayonu, H.Əliyev prospekti 91
Əlaqə nömrəsi: (+994 21) 285 28 06

### Hacıqabul
Hacıqabul rayonu, İ.Qayıbov küç., 9
Əlaqə nömrəsi: (+994 21) 204 44 70

## PSİXOLOJİ VƏ HÜQUQİ YARDIM GÖSTƏRƏN QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI

"Ümidli Gələcək" Sosial Təşəbüslər İctimai Birliyi
(+994 12) 425 18 21
(+994 55) 616 69 64

Uşaq Hüquqları Klinikası
(+994 12) 480 22 31

Azərbaycan Uşaq Qaynar xətt xidməti
(+994 12) 480 22 80

Azərbaycan Uşaqlar Birliyinin Uşaq Sığınacağı-Reinteqrasiya Mərkəzi
(+994 12) 513 24 63
(+994 50) 323 76 51

Miqrasiya İnformasiya Mərkəzi Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı Nümayəndəliyi
(+994 12) 465 11 95
E-poçt: info@iom.int

## Sığınacaq üçün hara müraciət edə bilərsiniz?

Zorakılıq qurbanları bu qeyri-hökumət təşkilatlarının yaratdıqları yardım mərkəzlərinə müraciət edib, məxfiliyi qoruyan müvəqqəti sığınacaq əldə edə bilərlər:

Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyi

### Bakı
Əlaqə nömrəsi: (+994 12) 408 56 96
(+994 12) 511 11 51
(+994 50) 314 35 15
(+994 50) 218 22 28
(+994 55) 314 35 15

Təmas Regional İnkişaf İctimai Birliyi

### Gəncə
Əlaqə nömrəsi: (+994 22) 256 98 18
(+994 50) 634 16 67
(+994 50) 753 28 01
(+994 55) 512 68 19

Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım İctimai Birliyi

### Sumqayıt
Əlaqə nömrəsi: (+994 18) 642 48 27
(+994 50) 680 22 22

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ YANINDA DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU

Sosial Sığınacaq - yaşayış yeri olmayan 18 yaşdan yuxarı şəxslər üçün yaşaması, onlara sosial-məişət və sosial-hüquqi xidmətlərin göstərilməsi üçün nəzərdə tutulmuş sosial xidmət müəssisəsidir.

Əlaqə nömrəsi: (+994 12) 434 58 63
(+994 51) 370 48 62

# UŞAQLARI CİSMANİ CƏZADAN QORUYUN!




**Uşaq cismani cəza nəticəsində fiziki və psixoloji travmaya, mənəvi əzaba, əlilliyə və digər bu kimi əziyyətlərə məruz qalır. Cismani cəza onun xəstə, əlil, qorxaq, əsəbi, qəddar və zorakılığa meylli olması ilə nəticələnir.**




ERKƏN NÌKAH -
QIZLARA QARŞI ZORAKILIQDIR!


QANUNLAR SİZİN TƏRƏFİNİZDƏDİR!
ÜMİDSİZLİYƏ SON!

# MƏİŞƏT ZORAKILIĞININ QARŞISINI ALAQ!



Bu vəsait Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən həyata keçirilən “Məcburi köçkünlər, qaçqınlar və sığınacaq axtaran şəxslər arasında cinsi və cender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirləri” layihəsi çərçivəsində məişət zorakılığı, onun formaları, nəticələri və aradan qaldırılması yolları ilə bağlı məlumatlığı artırmaq məqsədi ilə hazırlanmış və çap edilmişdir.